2026

AZƏRBAYCAN
SIĞORTAÇILAR
ASSOSİASİYASI

# Bülleten
# FEVRAL

# Azərbaycan Sığortaçısının Şərəf Kodeksi

Biz, Azərbaycan Sığortaçılar Assosiasiyasının üzvləri milli mənafeyə, iqtisadi inkişaf və siyasi sabitlik üçün əsasları təmin etməyə qadir yeni sosial-iqtisadi münasibətlərə cavab verən yeni ideoloji doktrinanın yaradılmasının zəruriliyini dərk edərək ümumbəşəri dəyərlərə, hamı tərəfindən qəbul edilən mənəvi prinsiplərə, mənəviyyata və hüquqa əsaslanan sığortaçının şərəf kodeksini işləyib hazırladıq. Sığortaçı bir maliyyə müəssisəsi olmaqla, mahiyyət etibarilə kommersiya mənəviyyatının qoruyucusudur, təmizliyi, doğruluğu, ağıllılığı, işgüzarlığı, dəqiqliyi həvəsləndirir və bədməsrəfçiliyi, qumar zövqünü, ağılsızlığı, şərəfsizliyi amansızcasına pisləyir.

Belə bir şəraitdə prosesin bütün iştirakçıları – istehsalçılar, satıcılar, istehlakçıların rifahı, ümumiliklə cəmiyyətin tərəqqisi xeyli dərəcədə sığortaçının xarakterindən, səmərəli əməyindən, onun mədəniyyətindən və mənəviyyatından asılıdır.

Sığortaçı özünün gündəlik peşə fəaliyyətində buna can atır:

-Verdiyi sözə əməl etmək. Onun sözü hər cür imzalardan, möhürlərdən və ya veksellərdən qiymətli və etibarlıdır;

-Özünə, öz tərəfdaşlarına və rəqiblərinə münasibətdə ləyaqətli davranmalı. Sığortaçı qanunsuz və natəmiz işdə iştirakdan qətiyyətlə çəkinir və ona yol verməməkdən ötrü mümkün olan hər şeyi edir;

- Müştərinin, tərəfdaşın mənafeyi üzərində öz mənafeyi qədər çalışır. Bu hamı üçün uğurların və rifahın rəhnidir;

-Sirləri qoruyub saxlamaq. Sığortaçı üçüncü şəxslər və təşkilatlar tərəfindən ona etibar olunmuş məxfi məlumatların qorunub saxlanmasında mütləq dərəcədə etibarlıdır;

-Sözlərində və əməllərində dəqiq olmalı. Sığortaçı kiməsə zərər gətirən hər hansı fəaliyyətdən çəkinir. Birincilik uğrunda mübarizədə yalnız ləyaqətli rəqabət qanuni vasitə ola bilər. Kommersiya uğruna, şan-şöhrətə, karyeraya kiminsə hüquqlarının və mənafelərinin, kiminsə ləyaqətinin və ya rifahının hesabına nail olunmamalıdır;

-İnsan, cəmiyyət, təbiət qarşısında məsuliyyət daşımalı. Sığortaçı siyasətdən kənardır. Əgər onların fəaliyyəti cəmiyyətin qanunları ilə ziddiyyətə girirsə və ya ümumbəşəri dəyərlər anlayışı ilə üst-üstə düşmürsə, sığortaçı şəxsi, partiya, qrup və ya qurumların mənafelərinin yedəyində gedə bilməz;

-Millətlərarası mədəni münasibətlərin qərarlaşmasına, beynəlxalq sığorta əlaqələrinin inkişafına kömək etməli, iqtisadi fəaliyyətin istənilən formasında millətçi yanaşma tərzini rədd etməli;

-Sığorta şirkətləri arasındakı münasibətlərdə yekdillik, həmrəylik və qarşılıqlı yardım prinsiplərinə əməl etməli, korporativlik və etimad ruhunu təsdiq etməli;

-Humanizm nümayiş etdirməli. Sığortaçı ölkənin sahibkarlıq ənənələrindən: xeyriyyəçilik və şəfqətdən kənarda qala bilməz. Sığortaçı ehtiyacı olanlara kömək etməyə hazırdır, bunun üçün əlində olan bütün imkanlardan istifadə edir.

İnsanın şərəf və ləyaqəti – Sığortaçı üçün istənilən digər dəyərlərdən yüksəkdə durur!

# Mərkəzi Bankın sədri Taleh Kazımov sığorta sektorunun rəhbər şəxsləri ilə görüşüb




Görüş zamanı sığorta sektorunun 2025-ci il üzrə fəaliyyətinin yekunları, yaxın və orta müddətli inkişaf perspektivləri, eləcə də sektorun dayanıqlı inkişafı üzrə prioritetləri müzakirə olunub.

Görüşdə həmçinin sığorta sektoru üzrə korporativ idarəetmənin gücləndirilməsi,risk əsaslı prudensial tənzimləmə, eləcə də icbari və könüllü sığorta növlərinin təkmilləşdirilməsi üzrə həyata keçirilən layihələr istiqamətində geniş fikir mübadiləsi aparılıb.

# ASA regional "LEGIS Hüquq Forumu"nda iştirak edib



Azərbaycan Sığortaçılar Assosiasiyasının İcraçı direktoru Elmar Mirsalayevin dəvətli olduğu forumda 1000-ə yaxın hüquq peşəkarı bir araya gəlib.

Tədbirin açılış mərasimində PAŞA Holding-in Baş icraçı direktoru Cəlal Qasımov, Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov, Baş prokuror Kamran Əliyev, PAŞA Holding-in Hüquq və Dövlət qurumları ilə əlaqələr departamentinin direktoru Aytac Qasımova, Mədəniyyət naziri Adil Kərimli və Ədliyyə naziri Fərid Əhmədov çıxış ediblər.

# "Xalq Qəzeti"ndə ASA-nın İcraçı direktorunun geniş müsahibəsi dərc olundu

Azərbaycan Sığortaçılar Assosiasiyasının İcraçı direktoru, Türk Dünyası Sığorta Birliyinin həmtəsisçisi Elmar Mirsalayevin "Xalq Qəzeti"ndə sığorta sektorunun 2025-ci ildə real vəziyyəti, inkişaf göstəriciləri və 2026-cı ilə dair proqnozlardan bəhs edən geniş müsahibəsi yayımlanıb. Keçid linkindən oxuya bilərsiniz:



8 — AKTUAL — 7 fevral 2026-cı il, şənbə — Xalq qəzeti

Sığorta sektoru davamlı inkişafı fəal dəstəkləyir

https://xalqqazeti.az/az/musahibe/253931-sigorta-sektoru-davamli-inkisafi-feal

# ASA Tədris Mərkəzi həssas qruplara DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində təlim keçdi



ASA Tədris Mərkəzi tərəfindən DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində sığorta mövzusunda maarifləndirici təlim təşkil olundu. DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin həssas qruplardan olan 15 benefisiarı, həmçinin "İnklüziv DOST" altproqramı üzrə fəaliyyət göstərən 15 könüllünün iştirak etdiyi bu təlim Mərkəzi Bankın və ASA-nın maliyyə savadlılığı layihəsi çərçivəsində həyata keçirildi.

Tədbir zamanı yerli sığorta bazarının mövcud vəziyyəti, risklərin idarə edilməsində sığorta xidmətlərinin rolu və sığorta məhsulları haqqında geniş məlumat verildi.

# Asiyada sığorta üzrə müdafiə boşluğu dərinləşib




Təbii fəlakətlərin iqtisadi zərəri artmaqda davam etdiyi halda, sığorta üzrə müdafiə boşluğu regionun ən həssas problemlərindən biri olaraq qalır. "Munich Re"-nin araşdırmasına görə, ötən il Asiyada baş vermiş təbii fəlakətlər təxminən 73 milyard dollar məbləğində iqtisadi zərərə səbəb olub.

Bu itkilərin də cəmi 12,3%-i sığorta hesabına qarşılanıb. Myanma, Laos, Kamboca və Filippin kimi bəzi aşağı gəlirli ölkələrdə isə sığorta penetrasiyası 5%-dən də aşağıdır.

Ekstremal təbiət hadisələri və aşağı sığorta penetrasiyası Asiyanın inkişaf etməkdə olan iqtisadiyyatlarında müdafiə boşluğunu daha da böyüdür. Mütəxəssislər qiymətqoyma yanaşmalarının yenilənməsini və dövlət–özəl sektor əməkdaşlığının aktivləşdirilməsini zəruri hesab edirlər.

# "Los Angeles Times": "Kaliforniya sürücüləri yüksək avtomobil sığortası tariflərindən əziyyət çəkir”


California's drivers slammed by high car insurance rates

LATIMES.COM — Los Angeles Times — A11 — BUSINESS

"Consumer Federation of America" tərəfindən aparılan araşdırmaya görə, 1989-cu ildən bu vaxta qədər Kaliforniyada avtomobil sığortası tarifləri 12,5% artıb.

İnflyasiya nəticəsində yeni avtomobillərin və ehtiyat hissələrinin qiymətlərinin kəskin bahalaşması, Trump administrasiyasının tətbiq etdiyi tariflərin dərinləşməsi, avtomobillərin daha mürəkkəb olması, ənənəvi avtomobillərlə müqayisədə elektromobillərin təmirinin baha başa gəlməsi, magistral yollarda sürət həddinin artması və yol-nəqliyyat hadisələrinin daha ağır nəticələrə səbəb olması sığorta tariflərinin artmasına başlıca səbəb kimi göstərilir.

# Elektron siqaretlərin sığorta sektoruna təsiri



Alternativ nikotin məhsullarının sürətlə yayılması ənənəvi "siqaret çəkən / çəkməyən" bölgüsünü alt-üst edib. Swiss Re-nin "Siqaret dilemması" adlı araşdırması göstərir ki, elektron siqaretlər, nikotin paketləri və qızdırılan tütün məhsulları həm tibbi, həm də risklərin qiymətləndirilməsi baxımından yeni risk qrupu yaradıb.

Swiss Re-nin təhlilinə görə, bu dəyişiklik sığorta sektorunda risklərin təsnifatı və tariflərin müəyyənləşdirilməsinə birbaşa təsir göstərir. Çünki mövcud anderraytinq modelləri alternativ nikotin istifadəçilərini əhatə edən risk qrupunu sistemli şəkildə nəzərə alacaq formada tam inkişaf etməyib. Erkən mərhələdə müşahidə olunan kardiovaskulyar və metabolik göstəricilər isə bu qrupun tamamilə neytral hesab edilməsinin riskli ola biləcəyini ortaya qoyur.

Məhsul çeşidinin artması və istifadə vərdişləri anderraytinq yanaşmalarında daha incə və diferensiallaşdırılmış yanaşmanı zəruri edir.



QROUP

*Sığorta növü: Tibbi sığorta*
*Sığorta hadisəsi: Pnevmoniya, Revmatoid artrit*
*Ödənilmiş sığorta məbləği:* ***9.268 AZN***

AtəşgahSığorta

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***31.995 AZN***



Xalq Sığorta

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***56.500 AZN***







QALA SIĞORTA





*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yanğın*
*Ödənilmiş sığorta məbləği:* ***78.431,23 AZN***

MEQA SIĞORTA




*Sığorta növü: AVSMMİS sığorta*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***31.500 AZN***



MEQA HƏYAT

*Sığorta növü:  Həyatın yaşam sığortası*
*Sığorta hadisəsi: Sığorta olunanın sığorta müddətinin bitmə tarixinədək yaşaması halı*
*Ödənilmiş sığorta məbləği:* ***126.759,58 AZN***

AZƏRBAYCAN
SIĞORTAÇILAR
ASSOSİASİYASI

Azərbaycan Sığortaçılar Assosiasiyası

asa_insurance

ASA Azərbaycan Sığortaçılar Assosiasiyası
(Azerbaijan Insurers Association)

https://www.asa.az/